# “Azərbaycan–multikulturalizm məkanı: BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu ölkəmizə nə vəd edir?”

**İslam mədəniyyəti din və çoxmədəniyyətlilik sahəsində tarixi mövqeyə malikdir. Müsəlman cəmiyyətləri tarix boyunca başqa din və mədəniyyətlərə mənsub insanlarla bir arada yaşamaq sahəsində xeyli təcrübə əldə etmişdir. Tarix sübuta yetirib ki, islam mədəniyyəti digər mədəniyyətləri düşmən qüvvə kimi yox, insani varlığı daha da zənginləşdirən bir dəyər kimi qəbul edir.**

## Fərqli din və mədəniyyətə hörmət

Tarixi çox qədim olan Bakı əsrlər boyu şərq, cənub və şimal qonşuları ilə ticarət etmiş, həm karvan, həm də dəniz vasitəsilə qurulan bu əlaqələr isə təbii ki, onun inkişafına, mədəniyyətinin formalaşmasına təsirsiz qalmamışdır. Şəhərin hərtərəfli inkişafı, XIX əsrin ikinci yarısından, 70-ci illərdən başlayır. Həmin dövrlərdə memarlıq da sürətlə inkişaf edir, milyonçular bir-birinin bəhsinə möhtəşəm binalar tikdirirdilər. Az müddətdə Bakıda bir neçə əzəmətli məbəd-məscid və kilsə tikilmişdi...

“III Aleksandr Bakıda möhtəşəm kilsə tikmək üçün pul ayırır və şərt qoyur ki, o, əzəmətli və yaraşıqlı olsun. Novı-Afon kilsəsinə oxşar, lakin ondan daha üstün bir məbəd tikmək qərara alınır. Akademik Marfeld baş memar təyin edilir. Novı-Afondan çertyojların surəti gətirilir. 1888-ci ildə təməlqoyma mərasimində çar III Aleksandr özü şəxsən iştirak edir. Qısa müddətdə şəhərin mərkəzində “Qızıllı”, yaxud “Aleksandro-Nevski” kilsəsi ucaldılır. Layihə tamam olanda buraxılan məbləğin azlığı bəlli olur. İanə toplamağa başlayırlar. Toplanan 200.000 manat ianənin 150.000 manatını müsəlmanlar ödəyir. Kilsə zənglərinin daha möhtəşəm, xoş və daha cingiltili çıxması üçün zəngin hazırlandığı tuncun tərkibinə gümüş və qızıl qarışdırmaq lazım olur və bu məqsədlə əhalidən qızıl-gümüş toplanır. İanənin əsas hissəsini müsəlmanlar ödəyib birinci yeri tuturlar...”

Yazıçı Manaf Süleymanovun “Eşitdiklərim, oxuduqlarım, gördüklərim...” —kitabından götürülmüş, bu nümunədə başqa dinə, məzhəbə hörmət açıq duyulur və artıq şərhə ehtiyac qalmır.

Azərbaycanın coğrafi bölgüsünü, insanların məskunlaşdığı yaşayış məskənlərinin bugünkü mənzərəsini göz önünə gətirin: Bakının kənd və qəsəbələrində əsrlərdən bəri yaşayan fars əsilli tatlar, Qubanın Qırmızı qəsəbəsindəki yəhudilər, İsmayıllının İvanovka kəndində yaşayan malakanlar, Lahıcdakı lahıclar, Gədəbəyin Saratovka kəndinin rus sakinləri... Dünənədək ən yaxşı yerlərdə yaşayan, ən gözəl, dilbər guşələrdə məskunlaşan, ən yüksək vəzifələrdə işləyən, ocağımızın başında oturan ermənilər... Azərbaycan torpağının əsl sahiblərindən, yerli əhalidən tarixin hansı məqamında pislik, təzyiq, təhqir görüblər?! Babalarımız, atalarımız kimməsə söyləyiblərmi ki, bu torpaq bizimdir, çıxın gedin?! Buna bu xalqın mədəniyyəti heç zaman yol verməyib. Elə bu günün tələbinə, şərtlərinə əsasən adlandırılan multikulturalizmin əsasında da bu dayanır, onu necə ifadə edib-etməməyimizdən asılı olmayaraq.

Cəmiyyətin həyatında elmlə yanaşı, əxlaq və din də həlledici rol oynayır, ruhun sağlamlığı təkcə bilik üzərində qurula bilmir. Burada inam, etiqad da eyni dərəcədə önəmlidir. Maddi mədəniyyətin, elmin, texnologiyanın, iqtisadiyyatın, fiziki sağlamlığın, idmanın prioritetliyinə əsaslanan Qərb sivilizasiyası və mənəvi mədəniyyətin, əxlaqın , dini dəyərlərin prioritetliyinə əsaslanan Şərq sivilizasiyası bir-birini qarşılıqlı surətdə tamamladıqda kamil insanın formalaşmasına xidmət edir.

Bu dəyərlərə böyük önəm verən ulu öndərimiz Heydər Əliyev respublikaya rəhbərliyinin bütün dövrlərində Azərbaycanı multikulturalizmin, tolerantlığın məkanı kimi tanıtmağa çalışmışdır. Müstəqilliyimizin ilk illərində təkrar hakimiyyətə qayıdışı ilə cəmiyyətimizdə milli birlik təmin edildi, dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq özünü Azərbaycana bağlı sayan hər kəs ümummilli liderin özünəməxsus müdrikliklə irəli sürdüyü azərbaycançılıq ideologiyası ətrafında bir araya gəldi. Milli-mənəvi dəyərlərimizin qorunması yönündə mühüm işlər görüldü, insanların din və etiqad azadlığının sağlam əsasda inkişafı təmin edildi.

Ulu öndərin ölkəmizdə mövcud din, tolerantlıq və multikulturalizm mühitinin daha da gücləndirilməsi ilə bağlı siyasəti dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. “Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycanın nümunəsi göstərir ki, multikulturalizm yaşayır” deyən Prezident İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunda səsləndirdiyi “Multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir” fikirlər də ölkə rəhbərinin multikulturalizmə böyük önəm verdiyinin göstəricisidir. 2016-cı ilin “Multikulturalizm ili” elan edilməsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması da dövlətimizin multikulturalizm siyasətinə önəm verməsini bir daha təsdiqləyir.

## Azərbaycan təcrübəsi dünyanın gözündə

Azərbaycan ta qədimdən müxtəlif etnoslarının və dini icmaların dinc yanaşı yaşamalarının unikal nümunəsidir. Respublikamızın bu sahədə əldə etdiyi təcrübə dünya tərəfindən yüksək qiymətləndirilir. Vaxtilə Almaniyanın burada səfiri olan Klaus Qrevlik hələ 2004-cü ilin iyununda Bakıda keçirilən tolerantlığa dair seminarda demişdir: “Yaratdığı dövlət-din münasibətləri modelini Azərbaycanın artıq ixrac etməsi mümkündür. Bu, sizin sərvətinizdir”. 2008-ci ilin mart ayında Bakıda rəsmi səfərdə olan Vatikanın dövlət katibi Kardinal Qarqizio isə ölkəmizdəki mövcud tolerantlığa belə qiymət vermişdir: “Azərbaycanda tolerantlıq onun xalqının nailiyyətidir. Mən Azərbaycanda qardaşlıq münasibəti gördüm və başa düşdüm ki, bu, burada yaşayan xalqın ənənəsidir”.

2015-ci ilin mayında Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində UNESCO-nun dinlərarası və mədəniyyətlərarası dialoq kafedra müdirlərinin akademik forumunun iştirakçılarından biri, Tacikistanın mədəniyyət naziri Şamsaddin Qrumbekovun söylədiyi fikirlər də çox əhəmiyyətlidir: “Dünyada ekstremizm, terrorizm təhlükəsi hamını narahat edir. Çoxları bunu dinlə əlaqələndirir. Amma hamımız bilirik ki, İslam dini insanları sülhə, xeyirxahlığa, dostluğa, qardaşlığa səsləyir. Azərbaycanın Dialoq Forumunu təşkil etməsi və dünyanın bir çox ölkələrinin və nüfuzlu təşkilatların bu tədbirdə iştirakı bir daha sübut edir ki, insanlar bir-birindən fərqlənmir. Mədəniyyətlər, düşüncələr, ümumi maraqlar da eynidir. Bütün bunlar dünyada sülhün, əmin-amanlığın və birgəyaşayış maraqlarının qorunmasına xidmət edir”.

Ölkəmizdə tolerantlıq ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verən qurumlardan biri Heydər Əliyev Fondudur. Fondun həyata keçirdiyi “Tolerantlığın ünvanı—Azərbaycan” layihəsi çərçivəsində Bakıdakı pravoslav kilsəsində təmir-bərpa işləri aparılmış “Or-Avner” Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik təhsil mərkəzi inşa edilmiş, Binə qəsəbəsindəki “Möhsün Səlim”, Gəncə şəhərindəki “Həzrəti Zeynəb” məscidləri əsaslı təmir edilərək yenidən qurulmuş, Bakıdakı “Müqəddəs Məryəm” kilsəsində bir sıra işlər görülmüş, “Vatikan” kilsəsində katakombalar təmir olunmuşdur.

Azərbaycanın birinci xanımının səyləri nəticəsində görülən işlər, həyata keçirilən layihələr ölkəmizin dünya birliyində zəngin mədəniyyətə, qədim tarixə, tolerantlıq ənənələrinə malik bir dövlət kimi özünəməxsus yer tutması baxımından böyük əhəmiyyət kəsb edir.

## VII Qlobal Forumu bizə nə vəd edir

Bu gün bütün dünyanın böyük din xadimləri özünü artıq tolerantlığın ideoloji mərkəzi və praktik təcəssümü kimi təsdiq edən Bakıda toplaşır, dinlərin dialoqu çərçivəsində, həm də sivilizasiyaların qarşılıqlı anlaşması istiqamətində səmərəli iş aparırlar. Multikulturalizmin beynəlxalq arenada təsdiq və təbliğinə Azərbaycan dövləti tərəfindən hələ 2008-ci ildə başlanılıb. Həmin ildə Prezidentin təşəbbüsü ilə Avropa İttifaqına üzv ölkələrin mədəniyyət nazirlərinin, 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrin mədəniyyət nazirlərinin toplantısı keçirilmiş, bununla da dünya siyasətçilərinin adlandırdığı kimi “Bakı prosesi” başlanmış və bu da Bakıda mədəniyyətlərarası dialoqların keçirilməsinə təkan vermişdir. Bu mənada Mədəniyyət Nazirliyinin xətti ilə istər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda həyata keçirilən layihələr, tədbirlər, xüsusi qeyd olunmalıdır. “Ölkəmizi tanıyaq və tanıdaq”, “Bölgələrdən paytaxta” və s. layihələrin əhəmiyyəti xüsusilə böyükdür. Belə ki, bölgələrimizin təbliğinin əsasında da milli-mənəvi, multikultural dəyərlər dayanır. Hər bir etnik qrupun, milli azlığın xalqımızın mədəniyyət tarixindəki rolu və yeri açıq göstərilir.

2015-ci ilin iyununda Bakıda keçirilən “Bölgələrdən paytaxta” layihəsinin növbəti təqdimatı İsmayıllı rayonuna həsr olunmuşdur. Tədbirdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev demişdir: “İsmayıllı rayonu ölkə başçısının siyasətinin əsas xətlərindən birini təskil edən xalqımızın multikulturalizm ənənələrinin daha da gücləndirilməsini özündə əyani təcəssüm etdirir. Burada müxtəlif xalqların nümayəndələrinin birgə yaşam tərzi dünyaya bir nümunə ola bilər. Bizim hər rayonumuzun, hər kəndimizin belə özünəməxsusluğu var. Bu, Azərbaycan xalqının mədəni, mənəvi zənginliyini bir daha sübut edir”.

Ölkə başçısı tərəfindən başlanğıcı qoyulan dövlət siyasəti bu gün prioritet səviyyəyə yüksəlmiş, multikulturalizmlə bağlı həyata keçirilən tədbirlər ölkəmizə mədəniyyətlərarası dialoq ölkəsi statusu qazandırmışdır. BMT kimi nüfuzlu bir təşkilatın Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun bu il aprelin 25-dən 27-dək Bakıda keçirilməsinin qərara alınması da ölkəmizin dünyada artan nüfuzundan xəbər verir. Forumda müxtəlif ölkələri təmsil edən 3000-dən artıq rəsmi şəxsin iştirakı gözlənilir. Bu forumda dünyanı narahat edən, demək olar ki, bütün məsələlər müzakirə ediləcək və bu barədə “Bakı Deklarasiyası”qəbul olunacaqdır. Ölkə başçısının dediyi kimi: “Bütün bu işlərin bir məqsədi var ki, ilk növbədə ölkəmizin uğurlu inkişafı təmin edilsin. Dünya miqyasında Azərbaycanın rolu və bizə olan hörmət, inam, rəğbət daha da artsın”.

Bəli, biz hər birimiz yaşı bəlli olmayan bu qoca dünyanın sakinləriyik. Millətlərə, irqlərə, dinlərə bölünməyimizdən asılı olmayaraq bu dünyanı qorumalı, bir-birimizə hörmətlə yanaşmalıyıq. Çünki Tanrı qarşısında bütün insanlar bərabərdir. Multikultural dəyərlərin mahiyyətində dayanan da elə budur...

**Mehparə ƏLİYEVA,**
**“Respublika”.**

*Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün*

# Əbədiyaşar Səhənd

***Cənubi Azərbaycanda anadilli poeziyanın və milli düşüncənin formalaşmasında əvəzsiz xidmətləri olmuş istiqlaliyyət carçısı, fikir, söz və əməl adamı Səhəndin anadan olmasının 90 ili tamam olur***

**Səhənd (Bulud Məşədi Mütəllib oğlu Qaraçorlu) 1926-cı ilin yazında qədim paytaxt şəhərlərimizdən, elm və mədəniyyət mərkəzlərimizdən olan Marağada zəhmətkeş bir ailədə dünyaya gəlmişdir. Soykökü qədim xəzərlərin qaraçurlu tayfası ilə bağlı olan ailəsi 1917-1918-ci illərdə rus-erməni-aysor çətələrinin talan və qətliamları dövründə Qaradağdakı dədə-baba yurdlarından şəhərə köçmüşdü. O doğulan gün göy üzünü sağanaq yağış buludları aldığından valideynləri qədim gələnəklərə uyğun olaraq bu təbiət hadisəsini düşərli əlamət hesab edib övladlarına Bulud adı versələr də, Rzaxanın assimilyasiya siyasətinin icraçısı olan məmur onun adını nüfuz dəftərində “Bəhlud” kimi yazmışdı. Amma o, şovinist şah məmurunun sırıdığı bu mənasız rəsmi adla yox, valideynlərinin verdiyi milli adla tanındı, vətənin ən uca dağlarından birinin—Səhəndin adından aldığı təxəllüslə ölməz əsərlər yaratdı.**

“Dədəmin kitabı” poemalar silsiləsindəki xırda avtobioqrafik məlumatlardan məlum olur ki, şairin yük avtomobili sürücüsü işləyən atası Mütəllib kişi yalnız “öz adını əyri-üyrü xətlə cızmalar, tayfasında ağ-qaradan başı çıxan tək adam —anası Ceyran xanım isə düz, ya qələt Quran oxumağı bacararmış”. Həmin dövrdə nəsildən ilk məktəbə gedən uşaq da məhz Bulud olmuşdur.

Bulud ilk təhsilini Marağada Xacə Nəsir mədrəsəsində almış, sonra Təbrizdə davam etdirmişdi. Həmin illərdə ana dilində təhsil almaq bir yana, məktəbdə ana dilində kiminləsə ünsiyyətdə olmaq belə yasaq idi. Rza xan hakimiyyətinin ilk illərində Azərbaycanda maarif işlərinə rəhbərlik etmiş R.Möhsüni Təbrizdə azərbaycanlı ziyalıları toplayaraq maarif idarələrində və məktəblərdə türkcə danışığın yasaq olduğunu bildirdikdən sonra bəyan etmişdi: “Məktəblərdə hər kəs türkcə danışsa, eşşəyin noxtasını onun başına salıb, axura bağlayın”...

Bu da azmış kimi, millətçilər tərəfindən başqa etnosların nəinki məişətdə, hətta rəsmi mətbuatda lağa qoyulması adi hal almışdı. Amma bütün bu basqılara, aşağılamalara, yasaqlara rəğmən Bulud hələ yeniyetmə çağlarından şovinistlərə meydan oxuyurmuş kimi, ana dilində şeirlər yazırdı. Sabir poeziyasının təsiri ilə qələmə alınan bu şeirlərin əksəriyyəti çox vaxt satirik məzmunlu olurdu. Bulud yaşadığı mühitin eybəcərliklərini açıb göstərməyə çalışır, onları kəskin tənqid atəşinə tuturdu. Bu şeirlər həm də onun şovinizmə, assimilyasiyaya qarşı təpkisi, özünü fərqli toplumun bir parçası kimi dərk və ifadə etməsinin ilk nümunələri idi.

Arazın şimalında — Azərbaycan Sovet Sosialist Respublikasında gedən yeni quruculuq prosesləri, II Dünya müharibəsi illərində baş verən qlobal hadisələr və bu fonda Cənubi Azərbaycana yeridilən sovet qoşunlarının tərkibində Bakıdan gəlmiş çoxsaylı milli mədəniyyət xadimlərinin gətirdiyi yeni ab-hava Xiyabani (1879-1920) hərəkatından sonra müqavimət gücünü itirmiş milli şüurda inqilabi dəyişikliklər yaratmışdı. Bu illərdə sovet hökumətinin beynəlmiləlçilik şüarları altında göstərdiyi yardımlar hesabına açılan anadilli məktəblər, qəzet və jurnallar, teatr, kitabxana və mədəniyyət klubları, tarixi şəxsiyyətlərə qoyulan abidələr milli özünüdərk prosesinin yenidən dirçəlməsinə, xalqın milli məqsədlər ətrafında sürətlə təşkilatlanmasına xidmət edirdi.

Bütün bu proseslər gənc Buludun dünyagörüşündə də köklü dəyişikliklər etmişdi. Ona görə də tərəddüd etmədən təhsilini yarımçıq qoyub sol hərəkatın bayraqdarı —zəhmətkeş kütlələr arasında böyük nüfuza malik olan Azərbaycan Demokrat Firqəsinin Marağa Gənclər Təşkilatına daxil olmuş, onun sıralarında əməli fəaliyyət göstərmiş, bir ara təşkilata rəhbərlik də etmişdi.

Sovet qoşunları Cənubi Azərbaycandan çıxarıldıqdan sonra İran hərbi hissələri S.C.Pişəvərinin (1893-1947) rəhbərliyi altında 1945-1946-cı illərdə fəaliyyət göstərmiş Milli Hökumətin mövcudiyyətinə qəddarlıqla son qoydu. Ədəbiyyat, təhsil, mədəniyyət, mətbuat sahəsində yaranmış canlanma söndürüldü. Ana dilində nəşr edilmiş kitab, qəzet və jurnallar yığılıb yandırıldı. Xalqın təzəcə çiçəklənən azadlıq və istiqlaliyyət arzularını şah rejiminin “repressiya şaxta”sı bar vermədən vurdu. Şair həmin dəhşətli dönəmi “Səbir daşı” şeirində çox canlı və təsirli şəkildə təsvir etmişdi:

Qərbli himayədarları tərəfindən atası Rzaxanın taxtına oturdulmuş Məhəmməd Rza Pəhləvinin (1919-1980) Cənubi Azərbaycanda həyata keçirdiyi siyasi repressiyalara məruz qalan milli fədailərdən biri də gənc Bulud idi. O iki dəfə —1946-1947-ci və 1951-1953-cü illərdə bir çox silahdaşı kimi həbs edilmiş, zindan həyatı yaşamış, fiziki və mənəvi işgəncələrə məruz qalmış, Tehrana sürgün edilmiş, Təbrizə yolu bağlanmışdı. Yaradıcılığının bir çox nümunələri də məhz bu illərdə it-bata düşmüşdü. Bütün bu əzab-əziyyətlər, məhrumiyyətlər onu nəinki tutduğu azadlıq və haqq yolundan döndərmiş, üsyankar ruhunu sındırmış, əksinə, daha da möhkəmləndirmiş, bu illərdə adını özünə təxəllüs seçdiyi Səhənd dağı kimi başı uca və vüqarlı etmişdi.

Amma vətəni “quzğun”lardan, “bayquş”lardan təmizləmək, azad etmək elə də asan iş deyildi. Çünki bu məhv planı müttəfiq dövlətlərin işbirliyilə hazırlanmışdı. Guya qlobal sülhün bərqərar olması bunu tələb edirmiş. Ona görə də Səhənd vətənin başının üstündə oynanan oyunların təhlükəsini yaşaya-yaşaya “Sülhə qurban oldu bu Azərbaycan!” —deyir, ABŞ və Böyük Britaniya imperialistlərinin, eləcə də onların əlaltısı olan şah cəlladlarının məkrli planlarının detallarını ustalıqla açıb göstərirdi.

Həmin faciəli günlərdə “Azərbaycan aydınlarının çoxu özgə əllərində oyuncağa çevrilərkən o, neçə yoldaşıyla birgə onları doğru yola çəkməyə çalışırdı.

Səhənd Cənubi Azərbaycanda törədilmiş cinayətləri, xarabazara çevrilmiş yaşayış məntəqələrinin acınacaqlı durumunu, insanların düçar olduğu səfalətə məhbusluq dövründə qələmə aldığı və sonralar üzərində işlədiyi “Xatirə” poemasında o qədər detallı və o qədər dəqiqliklə təsvir edir ki, qan donduran bu tabloları ürəkağrısız oxumaq mümkün deyil. Onun bu milli faciəni əks etdirən tabloları “Bir məzar boyunda yer sorağında” adlı əsərində başqa bədii boyalarla, başqa insani acılarla ifadə olunmuşdur.

Şair yaşadığı basqı və yasaqlar mühitində parçalanmış vətənin dərdlərini, onun gələcəyi ilə bağlı şəxsi düşüncələrini tez-tez “o taylı, bu taylı Araz üzərindən ifadə edirdi. O, “Araz” deyəndə, onu bu dərdi yaşayanlar asanlıqla başa düşürdü. Ancaq nə toplum təkcə “Araz dərdi” anlayanlardan ibarət idi, nə də Səhəndin hələ uşaqkən anasından əxz elədiyi “səbir”daşının dözümü vardı. Ona görə də ətrafına üsyan edirdi: “Səbir... səbir... Axı nə qədər, neçə əsr?”

Doğrudan da Səhənd səbir edə bilmirdi, çünki insanları öz şəxsi mülkü kimi görən, onlarla istədiyi kimi rəftar edən, istədiyi zaman asan, kəsən, yox edən, İranı xalqlar zindanına çevirib onların ən təməl hüquqlarını əlindən alan müstəbidi “Allahın yerdə kölgəsi” elan edib “şaha itaət Allaha itaətdir” deyən yaltaq məclis üzvlərinin, riyakar mollaların, keşişlərin məntiqindən dəhşətə gəlirdi. O, sual edirdi: Əgər sizin Allahınızın “kölgəsi” belə qəddar, zülmkar və qaniçəndirsə, bəs onda o özü kimdir? Deməli, o, mənim ulularımın ibadət elədiyi, “Qul haqqını yemə!” —deyən Allah deyil!

Səhənd səbir edə bilmirdi, çünki müstəbidin qurduğu rejim ona və onun mənsub olduğu xalqa hər şeyi yasaq etmişdi. Ona görə də taleyinə acıyaraq yazırdı:

*Taleyimə sən bax!*
*Düşüncələrim yasaq,*
*duyğularım yasaq.*
*Keçmişimdən söz açmağım yasaq,*
*gələcəyimdən danışmağım yasaq,*
*ata-babamın adın çəkməyim yasaq,*
*anamdan ad aparmağım yasaq.*

Amma qəlbindəki böyük Vətən sevgisi Səhəndi heç vaxt ruhdan düşməyə qoymurdu. Bu illərdə ana dilinə, milli tarixə və mədəniyyətə artan maraq cənublu ziyalılarımızı müxtəlif ədəbi-mədəni birliklər yaratmağa təşviq edirdi. “Bu birliklərdən biri də Səhəndin girişimi ilə 1953-cü ildə Tehranda qurulmuş və 1960-cı illərin ortalarına qədər fəaliyyət göstərmişdi. B.Səbahi, H.Katibi, M. Fərzanə, G.Səbahi, S.Cavid, N.Fəthi, M.M.Etimad, M.Məhzun, H.Məcidzadə, Nur Azər, İbrahimpur və başqaları bu birliyin üzvləri arasında idi. Birliyin məqsədi Azərbaycanda yazılmış əsərlərin və şifahi xalq ədəbiyyatı nümunələrinin yayımlanmasına yardımçı olmaq idi. Unudulmağa üz tutmuş bir çox əsər birliyin gərgin fəaliyyəti nəticəsində təkrar gün üzünə çıxmışdı”. Bu məqsədin reallaşmasında həm də ticarətlə və iplik fabrikası işlətməklə məşğul olan Səhəndin maddi dəstəyi xüsusi rol oynayırdı.

Səhənd yaşadığı basqılar və yasaqlar mühitində dostu Şəhriyarla birlikdə, Fəthi Gədiklinin sözləri ilə desək “İranda ana dilli, inqilabçı-demokratik ruhlu Azərbaycan şeirinin 1950-70-ci illəri arasındakı ən böyük hadisəsini yaratmışdı. ...Doğma Azərbaycan türkcəsinin şeirdə, mətbuatda yayğınlıq qazanmasında Səhəndin hərarətli şeirlərinin böyük rolu olmuşdu. Şeir tariximizə o, millilik, xalqçılıq və hürriyyət şeirini yaradanlardan biri kimi daxil olmuşdur”. Şəhriyar özünün şah əsəri hesab elədiyi “Səhəndiyyə”sində fədakar və istedadlı dostunun poetik portretini belə yaratmışdı:

Bir sənətkar olaraq, klassik Şərq poeziyasının sərt qayda-qanunları çərçivəsində yetişib püxtələşmiş Səhənd həm də Cənubda məzmun və forma baxımından yeni —modern şeirin təməlini qoyanlardandır. M.Fərzanənin (1926-2006) sözləri ilə desək, onun “milli-mübariz şeirimizdə yaratdığı üslub və söz quruluşu Cənubi Azərbaycanın müasir şeirində dərin iz buraxmış və bir çox şairlərə ülgü və örnək olmuşdur”. Ədəbiyyatımız qarşısında xidmətlərinin bu tərəfi bir də ona görə diqqəti cəlb edir ki, Səhənd dərin təhsil almasa da böyük erudisiyası, tanınmış sənətkarlarla aktiv ünsiyyəti və geniş mütaliəsi sayəsində özü-özünü dövrün tələbləri səviyyəsində yetişdirməyə nail olmuşdu.

Səhəndin poeziyaya gətirdiyi bu yeniliyin XX əsrin ortalarında Qərb, İran, Türkiyə və Şimali Azərbaycan poeziyalarında gedən modern yaradıcılıq axtarışları ilə əlaqəli olduğu mübahisəsizdir. O, 1947-ci ildən başlayaraq kvantitativ ölçüdən imtina edərək, əsasən sillabik şeirlər yazır. Belə hesab edir ki, Azərbaycan xalq dilinin poetik xüsusiyyətləri üçün məhz bu forma məqbuldur. Lakin onun tutduğu modernizm yolu tamamilə fərqli, özünəməxsus, demokratikliyi və humanizmi ilə seçilən bir yol idi.

Səhəndin yeni formalı, kəskin siyasi məzmunlu lirikası ilə tanış olduqca, adama elə gəlir ki, keçdiyi mübarizə və məhrumiyyətlərlə dolu həyat yolu onu o qədər sərtləşdirib ki, poeziyanın “əbədi mövzusu”nda şeirlər yaza bilməz. Amma bu aldadıcı təəssüratdır. “Ovçu ceyran”, “Gözlər” kimi şeirləri, rübailəri, bayatıları, qoşmaları ilə ilkin tanışlıq belə onun nə qədər incə ruha sahib sənətkar olduğunu, “söz deyəndə gülü, püstəni, qəndi”, doğrudan da ustalıqla qatdığını göstərir.

Səhənd yaradıcılığının zirvəsi isə heç şühəsiz ki, “Dədəmin kitabı” poemalar silsiləsidir. 12700 misradan artıq olan bu əsəri sadəcə olaraq türk ədəbi düşüncəsinin şah abidəsi “Kitabi-Dədə Qorqud”un nəzmə çəkilmiş variantı hesab etmək, əlbəttə, doğru deyil. Şairin eposda “yer alan duyğuları, daha dolğun, daha həqiqi şəkildə doğrultmaq və onları dərin ictimai-fəlsəfi görüşlərlə uyğunlaşdırmaq üçün” boylara əlavə etdiyi başlanış *(proloq)* və qurtarışlar *(epiloq)* bütövlükdə əsərin 30 faizə yaxınını (4154 misra) təşkil edir. Bu artırmalar onları “bədii və fikri cəhətdən qat-qat zənginləşdirmiş və insan xəyalının həyat ərsəsində qanadlanmasına yol açmışdır” (M.Fərzanə). Şair bu yolla, mənsub olduğu xalqın qəhrəmanlıq tarixini, adət-ənənələrini, mədəniyyətini, unudulmuş mənəvi dəyərlərini abidənin boyları üzərindən yeni forma və dillə nümayiş etdirməyə nail olmuşdur.

İstər Sovet Azərbaycanında, istərsə də İranda eposun nəşrinin və təbliğinin qadağan olunduğu bir dövrdə —ötən əsrin 50-ci illərində bu cür ağır və təhlükəli bir işin altına girmək, sözsüz ki, istənilən sənətkardan böyük cəsarət, dərin bilik və yüksək milli təəssübkeşlik tələb edirdi. İş o yerə çatmışdı ki, M.C.Bağırov Kremlin diktəsi altında eposu “Azərbaycana qatil və soyğunçu kimi gəlmiş oğuz köçəri tayfalarını idarə edən yuxarı təbəqələrin tərifinə həsr edilən, qardaş gürcü və erməni xalqına qarşı yönəldilən kitab”, rəsmi İran dairələri isə “Ural çölləri və Şimali Türkistan oğuzlarının dəyərsiz nağılları” adlandırırdı. Səhənd isə həmin dövrdə bu yasaqlardan çəkinməyən və yuxarıda sadaladığımız dəyərlərin hamısına birlikdə sahib olan bəlkə də yeganə Azərbaycan şairi idi. O, bu yükün altına girərkən ilk növbədə millətini aşağılayan, onu əsilsiz, köksüz kimi təqdim və təbliğ edən rus və fars şovinistlərinə, onların böhtanlarına inananlara sübut etmək istəyirdi ki, türklərin möhtəşəm bir tarixi və parlaq mədəni keçmişi var. Sadəcə olaraq bunları öyrənmək, sahiblənmək və təbliğ etmək lazımdır.

Böyük ziyalı, doktor C.Heyətin (1925-2014), “Dədəmin kitabı” dastanı ilə bağlı fikirləri də maraqlıdır. O, bu əsərə yüksək dəyər verməklə yanaşı, onu Firdovsinin “Şahnamə”si ilə müqayisə edir və Azərbaycan türklərinin “Millətnamə”si adlandırır. Lakin Səhəndin “Millətnamə”si Firdovsinin başqa xalqları aşağılayan “Millətnamə”sindən fərqli olaraq, istibdad altında inləyən Vətənini və soydaşlarını azad görmək istəyən, həm də bunu başqa xalqlara da eynən arzu edən bir beynəlmiləlçinin poetik fikir çələngidir.

Səhənd dünyanın hər yerində imperializmə qarşı azadlıq mübarizəsi aparan xalqlara öz şeirləri ilə dəstək verirdi. Bu baxımdan onun məşhur ABŞ yazıçısı, Nobel mükafatı laureatı Con Steynbekə (1902-1968) ünvanladığı “Axır süjə” adlı şeiri böyük maraq doğurur. Özü kimi sol görüşlü olan Steynbekin əsərlərinin daimi oxucusu və təbliğatçısı olan Səhənd onun birdən-birə mövqeyini dəyişib ABŞ-ın Vyetnamda apardığı qanlı savaşa qəzetlərdə haqq qazandırmasından dəhşətə gəlir. Zəhmətkeş insanların sosial, iqtisadi və mənəvi məşəqqətlərinə işıq tutan “Qəzəb salxımları” romanının müəllifindən bu addımı gözləmədiyindən onu satqın adlandırır və soruşur: “Bu gün Vyetnama soxulanların, faşist ordusuyla fərqi hardadır? O da insan qanı içirdi, bu da, baxsan həmin işdir, həmin kasadır”...

Səhənd poeziyasını ölməz edən böyük ustalıq, dərin məna, poetik axıcılıqla yanaşı, həm də onun mayasında dayanan bəşəri dəyərlərə səmimi sədaqətdir. Bu səmimiyyətin poetik ifadəsini onun bütün yaradıcılığı boyu izləmək mümkündür. Səhəndin yalnız bədii yaradıcılığı yox, həm də ictimai fəaliyyətinin məzmunu, işlətdiyi özəl iplik fabrikasından əldə etdiyi gəlirləri yönəltdiyi istiqamətlər də bunu sübut edir.

Səhənd poeziyasını həmişəyaşar edən digər xüsusiyyət isə onun statik poeziyadan fərqli olaraq oxucu ilə daim interaktiv ünsiyyətdə olmasıdır. Müdrik kəlamlar xəzinəsini xatırladan bu şeirlər sanki oxucusu ilə danışır, öz fikirlərini həmsöhbətinə lakonik şəkildə çatdırmaq istədikdə, onun fikirlərinə dəstək olur.

... Səhənd valideynlərinin verdiyi adla yarımçıq da olsa, dolu bir “Bulud” ömrü yaşadı. Onun Cənubi Azərbaycanda milli azadlıq mübarizəsi və anadilli ədəbiyyat üzərinə gözqamaşdırıcı “siyasi lirika şimşəklərinin” müşayiətilə səpələdiyi nur və bərəkət damcıları bu gün öz bəhrəsini daha çox verməkdədir. Xalqımızın Səhəndin arzuladığı dünyaya qovuşmasına bu bəhrələrin hər gün yardımçı olduğunu görməmək mümkün deyil. Səhəndin arzuladığı dünyada “insanlar məhkum deyil, çiçək açır, bar verir, həyatından zövq alır! İnsanlıq var, dostluq var, sevgi var, məhəbbət var!”

Səhənd 1979-cu il aprel ayının 11-də yaradıcılığının ən barlı-bəhərli çağında —53 yaşında qəflətən dünyasını dəyişmişdir.

Səhəndin yaradıcılığına, onun mübarizələrlə dolu həyatına, fikir dünyasına yaxından bələd olmayanlar üçün bəlkə də bu sözlər indi təəccüblü görünür. Axı necə ola bilər ki, Azərbaycan ədəbiyyatının ən nəhəng simalarından, əbədi zirvələrindən biri olan Şəhriyar ona “çal papağım” deyir?! Həm də təkcə özünün yox, Pəhləvi istibdadına qarşı ölüm-qalım savaşı aparan millətinin “papağı”, “dayağı” hesab edir, “tac”ını onun qarşısında əyir?

Əlbəttə, Şəhriyarın dilindən səslənən bu sözlərin daxili məntiqini anlamaq üçün bəzi həqiqətləri xatırlatmaq lazım gəlir. Bu həqiqətlərdən biri və bəlkə də birincisi isə ondan ibarətdir ki, ustad cəmiyyətdən küsüb özünə və öz evinə qapılanda, heç kəsi görmək istəməyəndə “Özgə çırağına yağ olmaq bəsdir, doğma ellərimiz qaranlıqdadır!”—deyərək, onu öz çırağımızı yandırmağa, öz evimizi qızdırmağa —ana dilimizdə yazmağa çağıran, onu düşdüyü bu psixoloji durumdan çıxarıb Tehrana gətirən və yaratdığı ədəbi məclisin başında əyləşdirib milli ziyalıları onun ətrafına toplayan da məhz Səhənd idi. Amma bundan da böyük həqiqəti ustad Şəhriyarın söhbətlərinin birindən öyrənirik: “Səhəndin ədəbiyyatımıza gəlişi ilə çox şeylər dəyişdi. Mən də dəyişdim. Dəyişməsəydim “Səhəndiyyə”ni yaza bilərdimmi? Səhənd olmasaydı “Səhəndiyyə” də olmazdı. Səhənd unudulmuş dəyərlərimizi yenidən zehnimizə, dilimizə daşıdı. Biz, millət olaraq Səhəndə çox şeylər borcluyuq”...

Elə buna görə Səhəndin hələ 1974-cü ildə şah rejimindən çəkinmədən “Elimizin dayağı, yurdumun fəxri” adlandırdığı ümumm